Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 24-25 (7261-7262) Cümə, 10 aprel 2015-ci il Qəzet ayda 4 dəfə çıxır Qiyməti 40 qəpik

## Prezident İlham Əliyev «AITF-2015» XIV Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisində

AzərbaycanRespublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində «AITF-2015» XIV Azərbaycan Beynəlxalq turizm və səyahətlər, «Horex caucasus-2015» IX Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar, həmçinin «CİBS-2015» II Xəzər Beynəlxalq kater və yaxtalar sərgiləri ilə tanış olublar.

Beynəlxalq turizm və səyahətlər sərgisi Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə keçirilir, Dünya Turizm Təşkilatı, Azərbaycan Turizm Assosiasiyası və Beynəlxalq Turizm Sərgiləri Assosiasiyası tərəfindən dəstəklənir. Bu sərginin əhəmiyyəti, burada iştirak edən ölkə və şirkətlərin sayının ildən-ilə artmasındadır. 2002-ci ildə sərgiyə 14 ölkə qatılmışdırsa bu il onların sayı 42-yə catıb. Bu ölkələrdən gələn 371 şirkət sərgidə 80-dək turizm istiqamətini təqdim edir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mədəniyyət və Turizm Nazirliyinin stendi ilə tanış olmuşlar.

Tanışlıq zamanı qeyd olunmuşdur ki, əlverişli coğrafi mövqeyi, zəngin iqlimi, flora və faunası, qədim tarixi və mədəniyyəti olan Azərbaycan sürətli iqtisadi və sosial inkişafı ilə dünyanın diqqət mərkəzindədir. Bu gün ölkəmiz turizm mərkəzi kimi də bütün dünyada tanınır. Bu sərgi ümumilikdə Cənubi Qafqaz regionunun turizm sənayesinin ən böyük ixtisaslaşdırılmış tədbiri hesab edilir. Məhz buna görə də getdikcə sərgiyə maraq artır. Sərgi həm turizm peşəkarlarına, həm də bütün səyahət həvəskarlarına gözəl imkanlar yaradır. Eyni zamanda Azərbaycanın zəngin turizm potensialını xarici iştirakçılara əyani şəkildə göstərir.

Prezidentə verilən məlumatda bildirilib ki, Azərbaycan Turizm Assosiasiyası 2009-cu ildə yaradılıb. Qurum turizm şirkətlərini birləşdirir, onların fəaliyyətini əlaqələndirir. Assosiasiya Dünya Turizm Təşkilatının üzvüdür. Bu quruma 100-dən çox turizm şirkəti və 80-dən çox mehmanxana kompleksi daxildir.

Daha sonra cənab Prezident və xanımı Mehriban Əliyeva sərginin Azərbaycana aid stendləri ilə tanış olmuşlar. Turizm sahəsinə göstərilən dövlət qayğısı Bakı ilə yanaşı regionlarda da öz təsirini göstərmiş, müasir turizm infrastrukturunun yaradılması Azərbaycana gələn turistlərin sayının ildən-ilə artmasına səbəb olmuşdur. Nəticə də budur ki, bu gün ölkəmizin regionları da sərgidə geniş təmsil olunur. Burada bölgələrimizin turizm imkanları ilə bərabər milli adətlərimiz, mətbəximiz, tarixi abidələrimiz barədə ətraflı məlumat verilir.




Sərgidə İran İslam Respublikasının, Maldiv Respublikasının, Malaziyanın, Macarıstanın, Argentinanın, Hindistanın, Dominikan Respublikasının, Türkiyə, Sloveniya, Koreya, Rusiya, Litva kimi bir sıra dövlətlərin tanınmış şirkətləri iştirak edirlər. Məsələn, Hindistandan, Dominikan Respublikasından 16, Türkiyədən 30-dan çox turizm şirkəti sərginin iştirakçısıdır. Sərgidə dünyanın aparıcı şirkətlərindən olan «Lactalis» şirkəti də məhsullarını nümayiş etdirir. Dünyanın 37 ölkəsində müəssisələri olan şirkət dünyada pendir istehsalı üzrə liderlərdən biridir. Bunlarla yanaşı iştirakçıların coğrafiyası ABŞ və Ukraynanı da əhatə edir.

Sərgilərlə tanışlıqdan sonra Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya «Bakı-2015» Birinci Avropa Oyunlarının açılış mərasiminə biletlər təqdim olundu.

Dövlət başçısı sərgilərin işinə uğurlar arzulamışdır.

**Nadir ATAKİŞİYEV.**

## 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70-ci ildönümü ilə əlaqədar qərara alıram:

1. 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına 800,0 (səkkiz yüz) manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Böyük Vətən müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 400,0 (dörd yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu sərəncamın 1-ci hissəsinin icrası məqsədi ilə:

2.1. Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 8,3 milyon (səkkiz milyon üç yüz min) manat ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həmin vəsaitin Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu birdəfəlik maddi yardımın bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 aprel 2015-ci il.*

## "2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 12 yanvar tarixli 988 nömrəli Sərəncamına uyğun olaraq qərara alıram:

1. "2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin;

3.2. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 aprel 2015-ci il.*